*İkinci nəşr*

# Balaca Tacirlərin Macəraları

## 2-ci hissə

**3 və 4-cü siniflər üçün**

Sağlam Təhsil texnologiyalarına cavab verən riyaziyyat və davranış mədəniyyəti standartlarını reallaşdıran inteqrativ dərslik



Müdrik | Haqbilən | Ləyaqətli | Yaradıcı | Mütərəqqi | Güclü | Mərd | Təşkilatlanan




"Həyatda insan hər şeyi öyrənir,
iki keyfiyyətdən başqa: sədaqət və cəsarət.
Bu keyfiyyətlər insanın qanında olur!"
ÜMUMMİLLİ LİDER
HEYDƏR ƏLİYEV

ADPU-nun 18 iyul 2024-cü il tarixli Elmi Şura iclasının 9 saylı protokoluna əsasən.

---

Uşaqlar üçün "Balaca tacirlərin macəraları" dərsliyi Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin və Paşa Holdingin dəstəyi ilə "KOB-lar üçün İnsan İnkişafı Forumu və Platforması layihələri çərçivəsində Milli Təhsil Texnologiyaları Mərkəzi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Tibb Universiteti və İnkişaf Korporasiyasının birgə işçi qrupu tərəfindən hazırlanmışdır:

KOBİA
Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

PAŞA Holding

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

Azərbaycan Tibb Universiteti

MİLLİ TƏHSİL TEXNOLOGİYALARI MƏRKƏZİ

İNKİŞAF KORPORASİYASI

## İşçi qrupun rəhbəri

Xalidə Aydın qızı Həmidova - ADPU-nun baş müəllimi, p.ü.f.d., kitabın elmi redaktoru, **Sağlam Təhsil üzrə mütəxəssis**

## Pedaqoji blok

Hicran Əvəz qızı Manafova - Sumqayıt şəhər Yusif Məmmədəliyev adına 31 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi (STS üzrə ustad müəllim) 2018-ci il nazirlik tərəfindən təşəkkürnamə ilə təltif olunub. **Sağlam Təhsil sinifləri üzrə "Fəal müəllim".**

Məsudə Kamran qızı Quliyeva - Sumqayıt şəhər Yusif Məmmədəliyev adına 31 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi. **Sağlam Təhsil sinifləri üzrə ustad müəllim".**

Təhminə Möhləddin qızı Ağayeva - Yasamal rayonu M.Müşfiq adına 18 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi. 2022-ci il İbtidai sinif müəllimlərinin sertifikasiyası imtahanında Respublika birincisi. **Sağlam Təhsil sinifləri üzrə "Fəal müəllim".**

Şahnaz Əlövsət qızı Yusif-zadə - Bakı şəhəri 161 nömrəli tam orta məktəb ibtidai sinif müəllimi. **Sağlam Təhsil sinifləri üzrə "Fəal müəllim".**

Nigar Nurəddin qızı Mehdizadə - Suraxanı rayonu, 279 nömrəli tam orta məktəbin Sağlam təhsil sinifləri üzrə ibtidai sinif müəllimi.
**Sağlam Təhsil sinifləri üzrə "Fəal müəllim".**

Arzu Xeyrullah qızı İmanova - Sumqayıt şəhər Yusif Məmmədəliyev adına 31 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi ("Elektron Təhsil" Respublika müsabiqəsinin qalibi).

## Sosioloji blok

Nigar Faiq qızı Şahhüseynbəyova - Azərbaycan Universiteti, Sosial işin təşkili kafedrasının müdiri, s.ü.f.d., MTTM-in sədri

## Tibb-gigiyenik blok

Şəhla Murad qızı Balayeva - ATU, Uşaq-Yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, t.ü.f.d., dosent

## Rəyçilər

Zöhrə Qoca qızı İsmayılova - ATU, uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının dosenti, t.ü.f.d.

Afaq Camaləddin qızı Hüseyn - UNEC, "Biznesin idarə edilməsi" kafedrası, dosent, i.e.n.

Kifayət Aslan qızı Xudaverdiyeva - UNEC, "Biznesin idarə edilməsi " kafedrası, dosent

Nailə Tofiq qızı Hüseynova - ADPU-nun Məktəbəqədər təhsil fakültəsinin dekanı, p.ü.e.d. dosent

Gülşən Tahir qızı Eminova - ADPU-nun İbtidai təhsil pedoqogikası kofedrasının baş müəllimi, p.ü.f.d.

## Tərtibat üzrə blok

Novruz İsa oğlu Səfərəlizadə - Art direktor

Gülgün Malik qızı Bayramlı - İllüstrator

Saday Şahsuvar oğlu Süleymanlı - Hekayə müəllifi

- Fədakar
- **Dürüst** (C25 İntegrity)
- Cəsarətli (C25 Bravery)
- Mübariz
- **Prinsipial** (IBP Principled)
- Yaxşılıqlara dəvət edən və pisliklərdən çəkindirən

6

- Fiziki mədəniyyətə malik-fiziki cəhətdən sağlam (IBS 36 Gross motor skills, IBS 36 Fine motor Skills)
- Fiziki sağlamlığını və tətbiqi bacarıqlarını inkişaf etdirən (İBS 36 Healthy Lifestyle)
- **Emosional zəkalı** (D10 Resilience, stress tolerance and flexibility)
- **Özünə əmin** (İBA12 Confidence)
- **İradəli** (C25 Persistence, C25 Self-Regulation)
- Nikbin (C25 Hope, C25 Humor)

6




5

- **Özünü inkişaf etdirən** (TMA Self Development)
- **Çevik uyğunlaşan** (TMA Adaptability)
- Geniş maraq dairəsi olan (C25 Curiosity; D10 Technology use, monitoring and control; D10 Technology design and programming)
- **Tələbyönümlü** (TMA Customer Orientation)
- **Sosial mədəniyyətə malik** (TMA Social Awareness)

11

- **Etibarlı (Güvənli, Sadiq)**
- Nəcib
- **Estetik mədəniyyətə malik**
- **Vicdanlı**
- **Ədalətli (Adil)** (C25 Fairness)
- Təvazökar (C25 Humility and Modesty)
- **Xeyirxah**
- **Səxavətli**
- Mərhəmətli (C25 Kindness, C25 Forgiveness and Mercy)
- **Qayğıkeş** (C25 Love)
- **Nəzakətli (xoşrəftar - etik qaydalara riayət edən)** (IBS36 Code of Behaivour)

**#BirgəKod**

**Uşaqlar üçün 8 dəyəri formalaşdıran 70 kompetensiyadan 43 kompetensiya.**

Məqsədyönlü
TMA Result Orientedness

İntizamlı
TMA Discipline, TMA Planning and Organizing

Müstəqil
TMA Independence

Təşəbbüskar
TMA İnitiative

Tədbirli
IBS36 Safety

Əməkdaşlıq etməyi bacaran
TMA Cooperation

Məsuliyyətli
TMA Accountability

Lider
D10 Leadership and social influence

Ünsiyyətcil
TMA Negotiating

Çalışqan (əməksevər, zəhmətkeş)
C25 Vitality

10

Tədqiqatçı
D10 Active learning and learning strategies

Problemləri kompleks həll edən
D10 Complex problem solving

Açıqfikirli
C25 Open mindedness

Yaradıcı təfəkkürlü
D10 Creativity, originality and initiative

Nəzəri təfəkkürlü
D10 Reasoning, problem-solving and ideation

Tənqidi təfəkkürlü
D10 Critical thinking and analysis

Praktik təfəkkürlü
IBS 36 Application

Məntiqi təfəkkürlü
D10 Analytical thinking and innovation

8

6

Mötədil
IBP Balanced

Uzaqgörən
C25 Prudence, C25 Perspective

Dəyər verən və faydalanan
İBA12 Appreciation

Özünü qiymətləndirən
C25 Assesment and Application

Sosial institutları (ailə, təşkilat) anlayan
TMA Organization sensitivity
TMA Political sensitivity

Münaqişələri həll edən
TMA Conflict Management

18

Rəhbərin haqqını təmin edən
K18 Sadiqlik-loyallıq

Multikultural mədəniyyətinə loyal
İBA 12 Tolerance

Vətənin haqqını təmin edən
C25 Citizenship

Ekoloji mədəniyyətə malik

Vətənə xidmət edənlərin haqqını bilən və təmin edən
K18 Sadiqlik-loyallıq

Yaradanın haqqını təmin edən
C25 Spirtuality, C25 Gratitude, C25 Appreciation of beauty and excellence

Hüquqi mədəniyyətə malik

Azərbaycan dəyərlərinə malik olanların haqqını təmin edən

Valideynin haqqını təmin edən

Tabeçiliyində olanların haqqını təmin edən

Həyat yoldaşının haqqını təmin edən

Ehtiyaclıların haqqını təmin edən

Övladın haqqını təmin edən

Alimlərin, müəllimlərin və elmin haqqını təmin edən

Qohumların haqqını təmin edən

Böyüklərin və kiçiklərin haqqını təmin edən

Qonşuların haqqını təmin edən

Qonağın haqqını təmin edən

# Mündəricat


| | | |
|---|---|---|
| Dərs 23 | Yaradıcı | Məntiqi təfəkkürlü |
| Dərs 24 | Yaradıcı | Yaradıcı təfəkkürlü |
| Dərs 25 | Yaradıcı | Problemləri kompleks həll edən |
| Dərs 26 | Mütərəqqi | Özünü inkişaf etdirən |
| Dərs 27 | Təşkilatlanan | Ünsiyyətcil |
| Dərs 28 | Mütərəqqi | Çevik uyğunlaşan |
| Dərs 29 | Mütərəqqi | Geniş maraq dairəsi olan |
| Dərs 30 | Müdrik | Münaqişələri həll edən |
| Dərs 31 | Müdrik | Dəyərverən və faydalanan |
| Dərs 32 | Haqbilən | Vətənin haqqını təmin edən |
| Dərs 33 | Haqbilən | Hüquqi mədəniyyətə malik |

# Mündəricat


| | | |
|---|---|---|
| Dərs 34 | Haqbilən | Multikultural mədəniyyətinə loyal |
| Dərs 35 | Ləyaqətli | Estetik mədəniyyətə malik |
| Dərs 36 | Ləyaqətli | Vicdanlı |
| Dərs 37 | Ləyaqətli | Ədalətli (Adil) |
| Dərs 38 | Ləyaqətli | Xeyirxah |
| Dərs 39 | Ləyaqətli | Etibarlı (Güvənli, Sadiq) |
| Dərs 40 | Ləyaqətli | Səxavətli |
| Dərs 41 | Ləyaqətli | Qayğıkeş |
| Dərs 42 | Ləyaqətli | Nəzakətli (xoşrəftar, etik qaydalara riayət edən) |
| Dərs 43 | Müdrik | Uzaqgörən |
| Dərs 44 | Yaradıcı | Tənqidi təfəkkürlü |


Həkkolma | Əl işi | Nitq quruculuğu | Yaradıcı tapşırıq | Ev tapşırığı

Yaradıcı Məntiqi təfəkkürlü



Əli, Aişə, Ömər və Fatimə kiçik bir layihə həyata keçirməyə qərar verdilər. Onlar məhəllədəki boş yerin təmizlənməsi və abadlaşdırılması üçün kampaniya təşkil etmək istəyirdilər. Məqsədləri həm ərazini təmizləmək, həm də bu iş üçün yerli icmadan dəstək almaq idi. Əraziyə nəzər yetirdikdən sonra həmin ərazini abadlaşdırmaq üçün bəzi avandanlıqların, materialların olmadığını gördülər. Dostlar çətinlik çəkəcəklərini düşündülər. Əli dostlarının narahatlığını görərək vəziyyəti analiz etməyə başladı. İşi effektiv görmək üçün ərazini zonalara böldü.

Hər bir zonaya uyğun görüləcək işləri, lazımi avadanlıqları və materialları, işə sərf olunan vaxtı müəyyənləşdirdi. Könüllülərə görə iş qrafiki təyin etdi. Əli məntiqi düşüncəsi ilə problemi sürətlə həll etdi. Nəticədə uşaqlar layihəni həyata keçirə bildilər.



# Əl işi

1. Abadlıq işi aparılan ərazinin sahəsini tapın. Fiquru düzbucaqlılara bölməklə sahəni hesablayın.




2. Ümumi sahəni təmizləmək üçün hər bir uşağa bərabər ölçüdə olmaqla nə qədər sahə ayrılmış olar?

3. Əli layihəni bitirmək üçün könüllülərdən də yardım istəmişdi. Əli hər birinə bərabər ölçüdə sahə düşəcəyini nəzərə alsa, neçə könüllü onlara kömək etməlidir ki, yenə də hər birinə bərabər ölçüdə sahə ayrılsın?

4. Əli ərazinin kənarlarına hər 4 metrdən bir zibil qabı qoymağı planlaşdırarsa cəmi neçə zibil qabı lazım olar?

5. Ümumi sahəyə əkmək üçün 7 dekorativ ağac alınarsa, bir ağac neçə $m^2$ sahəni yaşıllaşdırar?

6. Bir skamyanın oturacağının hazırlanması üçün 1m 60 sm uzunluğunda taxta, ayaqları üçün 4 dənə 50 sm uzunluğunda dəmir lazımdır. Əkilən hər ağacın altına 1 skamya qoyulacaqsa, ümumi lazım olacaq dəmir və taxtanın uzunluğunu hesablayın.

## Yaradıcı tapşırıq

Sahənin planına əsasən ağacların və skamyaların yerini müəyyən edərək şəklini çəkin.

## Nitq quruculuğu

1. Əli dostlarının narahatlığını görəndə onlara necə stimul verərdi?

2. Əli məhəllədən könüllü yardımsevər tapmaq istəyirdi. Məhəllə sakinlərinin bu layihədə könüllü iştirak etməsi üçün çıxış hazırlayaraq təqdim edin.

3. Siz ərazidə başqa hansı abadlıq işləri görərdiniz?

**Yaradıcı** Yaradıcı təfəkkürlü

Aişə, Əli, Ömər və Fatimə yay tətilində maraqlı bir layihə həyata keçirmək istədilər. Onlar məhəllədəki uşaqlar üçün böyük bir film gecəsi təşkil etməyə qərar verdilər. Bu tədbir həm əyləncəli olmalı idi, həm də biletlərdən əldə olunan gəlir ilə məhəllə kitabxanası üçün yeni kitablar alınmalı idi.

Uşaqlar film gecəsi üçün plan hazırlamağa başladılar. Lakin bəzi problemlərlə qarşılaşdılar. Onların proyektoru və böyük bir ekranı yox idi. Həmçinin məhəllədə filmi göstərə biləcək böyük və rahat bir yer də yox idi. Bu vəziyyət onları narahat etdi və həll yolu axtarmağa başladılar.



Bu problemləri həll etmək üçün plan tərtib etdilər.

| Görülən işlər | Müddət |
|---|---|
| 1. Tədbirin keçiriləcəyi yeri müəyyənləşdirmək | 1 gün |
| 2. Tamaşaçılar üçün oturacaqlar düzəltmək | 1 gün |
| 3. Proyektor təşkil etmək | 1 gün |
| 4. Ekran təşkil etmək | 1 gün |
| 5. Baxılacaq filmlərin sorğusunu keçirmək | 2 gün |
| 6. Afişalar hazırlamaq | 2 gün |
| 7. Biletlərin satışını etmək | 3 gün |
| 8. Xüsusi qayğıya ehtiyacı olan uşaqların qonaq qismində iştirakını təşkil etmək | 2 gün |
| 9. Bilet əldə edən tamaşaçıların iştirakını təmin etmək | yayımdan öncə |
| 10. Gəlir və xərcləri hesablamaq | layihə müddətində |
| 11. Əldə olunan vəsaitə kitabların alınmasını təşkil edin. | son gün |
| 12. Popkorn və şirə təşkil etmək | yayım zamanı |






Aişə yaradıcı təfəkkürü ilə fərqli bir yanaşma düşündü. O, proyektor və ekran əvəzinə məhəllədəki böyük bir divarı ekran kimi istifadə etməyi təklif etdi. Bu divarı ağ bir parça ilə örtərək proyektor üçün uyğun bir səth yaratmağı planladı. Proyektor tapmaq üçün isə məhəllədəki digər dostlarından və qonşulardan kömək istədi.

Aişə və dostları məhəllədəki böyük bir divarı təmizləyərək evdən gətirdikləri ağ bir parça ilə örtdülər və film göstərə biləcəkləri bir ekran yaratdılar.

Onlar proyektor tapmaq üçün tanışlara müraciət etdilər  və qonşuları onlara proyektor verməyə razı oldu.




Aişənin yaradıcı təfəkkürü sayəsində film gecəsi çox uğurlu oldu. Uşaqlar filmi böyük bir divarda izlədilər və çox əyləndilər. Bilet satışından əldə olunan gəlir ilə məhəllə kitabxanası üçün yeni kitablar alındı.

# Əl işi

1. Filmə gələn 10 iştirakçıdan 1 nəfəri filmə pulsuz baxır. Filmə cəmi 320 tamaşaçı gələrsə, neçə nəfər filmə pulsuz baxacaq?

2. Filmə ödənişli baxanlar 4 cərgədə düzülərsə, hər cərgədə neçə nəfər əyləşib?

3. Biletin qiyməti 3 manat 20 qəpik olarsa, filmdən nə qədər vəsait toplanacaq?

4. Tamaşaçılardan 320 nəfərin 190 nəfəri uşaq idi. Hər uşağa 1 popkorn və 1 şirə hədiyyə edildi. 1 popkorna 24 qəpik 1 şirəyə isə 30 qəpik xərclənərsə, 190 popkorn və şirəyə nə qədər xərc çəkilər?

## Yaradıcı tapşırıq

Tamaşaçıların marağını cəlb etmək üçün maraqlı afişa hazırlayın.

## Nitq quruculuğu

1. Yeni kitabları əldə etmək üçün uşaqlar kitab nəşriyyatı ilə söhbət edərək öz məqsədlərinə nail oldular. Kitab nəşriyyatı ilə aparılan söhbəti dialoq şəklində yazın və səhnələşdirin.

2. Film növlərini araşdırın. Sizcə, hansı filmlər insanlara daha maraqlı gəlir?

## Ev tapşırığı :

Evinizdə istənilən otağın divarlarının enini, uzunluğunu və hündürlüyünü ölçün. Bir otağa nə qədər divar kağızı lazım olduğunu müəyyənləşdirin.





Bir gün Əli, Aişə, Ömər və Fatimə məktəbdəki dərslərində dostlarına kömək etməyə qərar verdilər. Onlar dostlarının problemlərini dinləmək, onları başa düşmək, məsləhət vermək və kömək etmək üçün birlikdə çalışmaq istəyirdilər.

Əli, Aişə, Ömər və Fatimə hər biri öz fərqli bacarıqlarından istifadə edərək, dostlarına kömək etməyə başladılar.

Əli Elçinin riyaziyyat dərsində çətinlik çəkdiyini öyrəndi. O, Elçinin problemlərini dinlədi və ona kömək etmək üçün riyaziyyat dərslərindən əlavə dərslər keçməyə başladı. Əli Elçinin zəif tərəflərini müəyyən edərək ona daha yaxşı anlama yollarını izah etdi.

Aişə Leylanın ingilis dili dərsində çətinlik çəkdiyini öyrəndi. O, Leylanın problemlərini dinlədi və ona kömək etmək üçün ingilis dili fənnindən əlavə dərslər keçməyə başladı. Aişə Leylanın danışıq və yazı bacarıqlarını inkişaf etdirmək üçün ona məsləhətlər verdi, əlavə materiallar təqdim etdi.

Ömər Kamranın ev tapşırıqları ilə bağlı problemlər yaşadığını öyrəndi. O, Kamranın problemlərini dinlədi və ona kömək etmək üçün birlikdə çalışmağı təklif etdi. Ömər Kamrana ev tapşırıqlarını daha səmərəli şəkildə yerinə yetirə biləcəyini izah etdi.

Fatimə isə Ləmanın özünü sosial vəziyyətlərdə narahat hiss etdiyini öyrəndi. O, Ləmanın problemlərini dinlədi və ona məsləhətlər verməyə başladı. Fatimə Ləmana özünə güvənmək və sosial vəziyyətlərdə daha rahat olmaq üçün müxtəlif yollar öyrətdi.





Bu hadisə Əli, Aişə, Ömər və Fatiməyə başqalarına kömək etmə zamanı problemin həlli bacarığının nə qədər vacib olduğunu göstərdi.

# Əl işi

1. Kursda 13 nəfər ingilis dilini, 9 nəfər fransız dilini bilir. Aişə və 5 nəfər hər iki dili bilirsə, kursda cəmi neçə nəfər təhsil alır?

2. Kursda iki dil öyrənən şagird 70 manat, bir dil öyrənən şagird 40 manat təhsil haqqı ödəyir. Bu hesabla kursda dil öyrənən şagirdlər cəmi neçə manat ödəyər?

## Nitq quruculuğu

1. Hekayəni öz təxəyyülünüzə uyğun davam etdirin.

2. Aişə, Fatimə, Ömər və Əlinin uşaqlara yanaşma tərzinə görə ayrı-ayrılıqda münasibət bildirin.

3. Ləmanın özünə güvənməsi və sosial vəziyyətdə daha rahat olması üçün yollar düşünün.

Sizcə problemi başqa hansı yollarla həll etmək olardı?

## Ev tapşırığı :

Həyatda rastlaşdığınız bir problemi təsvir edin. Bu problemi necə həll edəcəyiniz haqqında plan hazırlayın. Yazılı şəkildə təqdim edin.

# Mütərəqqi Özünü inkişaf etdirən



Bir gün Əli,  Aişə, Ömər və Fatimə məhəllədəki xeyriyyə satışına könüllü olaraq kömək etmək qərarına gəldilər. Bu satışda müxtəlif ev əşyaları, geyimlər, kitablar satılırdı və əldə olunan gəlir ehtiyacı olan insanlara dəstək məqsədilə istifadə olunmalı idi. Uşaqlar bu işdə iştirak etməyi çox istəyirdilər, amma layihənin həyata keçirilməsi üçün çox sayda iş görülməli idi.

İlk günlərdə uşaqlar satış yerini hazırlamaq, məhsulları təşkil etmək və reklam etmək üçün çalışdılar. Lakin işin gedişində problemlər ortaya çıxdı. Məhsulların düzgün təşkil olunmaması, satış yerlərinin təsadüfi şəkildə seçilməsi və reklamın səmərəsizliyi satışların azalmasına səbəb oldu. Uşaqlar narahat olmağa başladılar.

Ömər dedi: “Bu iş belə getməz. Biz nəyi səhv etdiyimizi anlamalıyıq”.

Aişə əlavə etdi: “Bəlkə də öz bacarıqlarımızı inkişaf etdirib daha yaxşı bir plan hazırlamalıyıq”.

| **Plan** |
|---|
| 1. Köhnə əşyaların toplanması üçün elan hazırlamaq |
| 2. Köhnə əşyaların yerləşdirilməsi üçün məkan təyin etmək |
| 3. Əşyaları növlərinə görə çeşidləmək |
| 4. Yenilənməyə ehtiyacı olan əşyaları ayırmaq |
| 5. Ehtiyacı olan əşyalara yeni dizayn vermək |
| 6. Satış reklamını təşkil etmək |
| 7. Mədaxil və məxaricləri hesablamaq |
| 8. Xeyriyyə satışında əldə olunan vəsaiti ehtiyacı olan  insanlara təqdim etmək |



Aişə marketinq və reklam strategiyaları haqqında məlumat toplamağa başladı. Ömər satışların təşkili və müştərilərlə düzgün əlaqə qurmağın sirlərini öyrəndi. Fatimə məhsulların daha cəlbedici təqdim olunması barədə araşdırma apardı. Əli isə satış məkanı üçün axtarışlar etdi.

Müxtəlif yollardan istifadə edərək, köhnə əşyaları yeniləmək, emal edərək təkrar istifadə etmək mümkündür. Onlar köhnə şamdanlara, çərçivələrə, masalara, saxsı qablara yeni dizayn verərək satışa çıxardılar. Uşaqlar bu sahədə özlərini inkişaf etdirərək, uğurlu satış həyata keçirdilər.



## Əl işi

1. Aişə plastmas butulkadan güllər hazırlayaraq boyadı. Hər gülə 250 qr boya sərf edildi. Boya 1 kq-lıq və 3 kq-lıq qutularda satılır. Sizcə, 28 gülü boyamaq üçün hansı çəkidə olan qutulardan almaq lazımdır ki, boya artıq qalmasın?

2. Fatimə uşaq evinə eni 50 sm, uzunluğu 70 sm olan yastıq üzünü bəzəmək üçün 30 m lent aldı. Bu lent neçə yastığın bəzəyinə çatar? Nə qədər lent artıq qalar?

### Yaradıcı tapşırıq

Ən yaxşı dizayn növləri düşünərək əşyalar üzərində tətbiq edin.

## Nitq quruculuğu

1. İnsan uğur qazanmaq üçün özünü necə inkişaf etdirməlidir?

2. Hazırladığınız işin səmərəliliyi haqqında təqdimat hazırlayın.

## Ev tapşırığı :

Hər hansı satış yerində müştərilərlə daha yaxşı əlaqə qurmaq üçün yeni strategiyalar təklifi hazırlayın.

Əli, Aişə, Ömər və Fatimə yay tətilində pul qazanmaq və eyni zamanda əylənmək üçün kiçik bir ticarət işi qurmağa qərar verdilər. Onlar məhəllədəki insanlar üçün evdə hazırlanan müxtəlif əl işləri və sənətkarlıq məhsulları satmağa qərar verdilər. Əli taxta oyuncaqlar, Aişə toxuma işləri, Ömər rəsm əsərləri, Fatimə isə keramika əşyaları hazırlamağı seçdi.

Uşaqlar məhsullarını hazırlamağa başladılar. Lakin onlar məhsulları effektiv şəkildə satmağı və müştəriləri necə cəlb etməyi bilmirdilər. Müştərilərlə ünsiyyət qurmaq və onları alış-verişə cəlb etmək üçün hansı üsullardan istifadə edəcəklərini bilmirdilər.

Ömər dedi: “Bizim məhsullarımız yaxşıdır, amma insanlar onları necə tapacaq və almağa necə maraq göstərəcək?”

Aişə əlavə etdi: “Biz müştərilərlə necə ünsiyyət qurmalı və onların maraqlarını necə çəkməli olduğumuzu bilməliyik”.



Fatimə düşündü və dedi: “Biz əvvəlcə insanların nə istədiklərini və nə axtardıqlarını öyrənməliyik. Onlarla düzgün ünsiyyət qurmaq və onların maraqlarını öyrənmək vacibdir”.

Əli də bu fikri dəstəklədi: “Bəlkə, biz birbaşa müştərilərlə danışaraq onların fikirlərini öyrənək? Beləliklə, məhsullarımızı onların istəklərinə uyğun şəkildə təqdim edə bilərik”.

Onlar düşündülər ki, sakinlərlə görüş təşkil etsinlər. Əli öz taxta oyuncaqlarının müsbət keyfiyyətləri haqqında sakinlərə məlumat verdi. Bildirdi ki, taxta oyuncaqlar idrak və problemi həll etmə bacarıqlarını inkişaf etdirir. Yaradıcı oyuna ilham verir. Əli düşündü ki, onun satışı uğurlu alınacaq .



Uşaqların sosial davranış və ünsiyyət bacarıqları sayəsində onların ticarət işi uğurlu oldu. Məhəllə sakinləri məhsullara böyük maraq göstərdi və alış-veriş etdilər. Uşaqların müştərilərlə düzgün ünsiyyət qurması və onların istəklərini nəzərə alması sayəsində işləri çox uğurlu oldu və çoxlu müştəri qazandılar.

Bu hekayə Əli, Aişə, Ömər və Fatimənin sosial davranış bacarıqları və ünsiyyət qurma bacarıqları ilə necə uğur qazandıqlarını göstərir. Sosial davranış və ünsiyyət qurma bacarıqları ilə rastlaşdığı problemi həll etməyi bacardılar.

# Əl işi

1. Əli taxta oyuncaq düzəltmək üçün 60 sm uzunluğunda taxtanı 12 hissəyə ayırdı. Hər kəsimə 3 dəqiqə vaxt sərf etdi. 60 sm taxtanı kəsmək üçün nə qədər vaxt lazımdır? Hər hissədən 2 oyuncaq alınarsa, Əlinin cəmi neçə oyuncağı oldu? Əli 1 oyuncağı 50 qəpiyə satarsa, nə qədər gəlir əldə edər?

2. Aişə toxuduğu oyuncaqlar haqqında uşaqlar üçün ödənişli master-klass təşkil etdi. Bunun üçün muncuğa 6 manat, sapa 9 manat, milə 3 manat pul xərclədi. Bir şagird üçün master-klassın ödənişi 10 manatdır. Master-klassda 12 nəfər iştirak edərsə, Aişə neçə manat gəlir əldə edər?

## Yaradıcı tapşırıq

Əliyə dəstək olmaq üçün taxtadan oyuncaq maket düzəldin.

## Nitq quruculuğu

Sizcə, Ömər necə etsin ki,onun sərgisinin satışı uğurlu alınsın?

## Ev tapşırığı :

Keramika məhsullarından bəhs edən videoçarx hazırlayın.

Əli və Ömər bir gün məktəblərində keçirilən ticarət günündə iştirak etməyə qərar verdilər. Bu tədbirdə şagirdlər öz hazırladıqları müxtəlif məhsulları sataraq satış və biznes bacarıqlarını inkişaf etdirəcəklər. Əli və Ömər evdə hazırladıqları bəzək əşyalarını satmağa hazırlaşırdılar.

Ticarət günü Əli və Ömər düzəltdikləri bəzək əşyalarını bir qutuya yığaraq stendə düzməyə apardılar. Stendə düzən zaman qutuya qoyduqları əşyaların çoxunun olmadığını gördülər. Yolda qutunun kənarı açılmış , əşyaların çoxu itmişdi. Buna görə də, stendə kifayət qədər məhsul düzə bilmədilər və müştəriləri cəlb edə bilmədilər.



Ömər dedi: “Bizim bəzək əşyalarımız itdi. Bu vəziyyətdə nə edəcəyik?”

Əli əlavə etdi: “Biz bu problemi həll etmək üçün tez bir zamanda yeni bir plan tapmalıyıq və bu plan üzrə hərəkət etməliyik”.

Əli və Ömər dərhal yeni bir plan düşünməyə başladılar.

| Plan |
|---|
| 1. Satış üçün lazım olan əşyaları müəyyən etmək |
| 2. Əşyaları hazırlamaq üçün materiallar almaq |
| 3. Hazırlanan məmulatın eskizlərini çıxarmaq |
| 4. İşin sürətli icrası üçün dostları yardıma çağırmaq |
| 5. İşi icra etmək |



Əli və Ömərin işə cəld uyğunlaşma bacarığı sayəsində onların ticarət stendi çox uğurlu oldu. Onlar qarşılaşdıqları problemi tez bir zamanda həll edərək, yeni məhsullar hazırladılar və müştərilərə təqdim etdilər. Müştərilər onların bəzək əşyalarını çox bəyəndilər.

## Əl işi

1. Bir qolbağa 50 muncuq işlənir. Muncuqlar 100 ədəd olmaqla qutularda satılır. Bir qutu muncuq 2 manat 90 qəpikdir. Bir qolbaq 2 manata satılarsa 5 qutu muncuqdan neçə manat qazanc əldə etmək olar?

2. Əli 20 dəqiqəyə 10 qələmqabı, Ömər isə 30 dəqiqəyə 12 qələmqabı bəzəyirsə, onlar birlikdə 10 dəqiqəyə neçə qələmqabı bəzəyərlər?

3. .Əli şagirdlərə rəngli salfetlərdən gül hazırlamağı tapşırdı. Əgər 2 şagird 10 dəqiqəyə 20 gül hazırlayarsa, həmin sürətlə 5 şagird 30 dəqiqəyə neçə gül hazırlayar?

4. Sərginin hazırlanmasında 24 şagird iştirak etdi. Bu şagirdlərdən $\frac{1}{12}$ -i qələmqabı, $\frac{1}{6}$ -i salfetdən gül, $\frac{1}{4}$ -i muncuqlardan qolbaq hazırladı. Qalan şagirdlər xarıbülbül eskizini bəzədi. Neçə şagird xarıbülbül eskizini bəzədi?

## Nitq quruculuğu

Ömər xarıbülbül eskizini muncuqlarla bəzəyib sərgidə müştərilərə Qarabağın simvolu kimi təqdim etmək istəyir. Ömər üçün çıxış nitqi hazırlayıb təqdim edin.

## Ev tapşırığı :

Xoşladığınız heyvan eskizini dənli bitkilərlə bəzəyin.

## Mütərəqqi Geniş maraq dairəsi olan




Bir gün Əli, Aişə, Ömər və Fatimə birlikdə bir kənd ətrafında gəzintiyə çıxdılar. Onlar həm əylənmək, həm də yeni şeylər öyrənmək üçün yaxınlıqdakı meşəyə gedirdilər. Gəzinti zamanı açıqlıq bir ərazidə dayanıb piknik etməyi planladılar.



Yolda irəliləyərkən onlar yağışa düşdülər. Fırtına səbəbindən yollar çətinləşdi və onların gətirdikləri yeməklər islandı. Telefonlarının da enerjisi bitmişdi və onlar geri dönə bilməyəcək qədər uzaqda idilər. Gözlənilməz bu vəziyyət uşaqları narahat etdi.

Ömər dedi: "Biz nə edəcəyik? Yeməklərimiz islandı və telefonlarımız da işləmir".
Aişə əlavə etdi: "Bəlkə burada qalmalıyıq və çıxış yolu tapmalıyıq".



Bu vəziyyətdə uşaqların geniş maraq dairəsi onların köməyinə çatdı. Aişə təbiətlə maraqlandığı üçün meşədəki yeməli bitkiləri tanıyırdı və yaxınlıqdakı yeməli meyvələri topladı. Əli macəra və kəşfiyyat ilə maraqlandığı üçün tez bir zamanda sığınacaq qurdu, hamını oraya yönləndirdi. Fatimə təcili yardım üçün lazım olan əsas əşyaları hazırlamağa başladı. Ömər musiqi və hekayə ilə maraqlandığı üçün uşaqları əyləndirərək, onları ruhlandırdı.

Ömər bunun üçün qamışdan tütək, kötükdən nağara hazırladı. Çantasından daraq və falqa kağızı tapıb yeni musiqi aləti hazırlamaq istədi. Ömər musiqi alətlərini hazırlayarkən əlini zədələdi. Fatimə ilk tibbi yardım biliklərindən istifadə edərək, dərman bitkisinin suyunu əzərək yaranın üzərinə çəkdi.

Bir azdan yağış dayandı. Günəş şüaları ətrafı bürüdü. Uşaqlar ocaq qalamaq üçün eynək şüşəsindən istifadə etdilər. Yemək yedilər, qurulandılar və Aişənin bilikləri sayəsində yollarını taparaq evlərinə sağ-salamat qayıtdılar.

Geniş maraq dairəsi və fərqli sahələrdə bilik, bacarıq əldə etməklə hər bir problemi həll etmək mümkündür.

## Əl işi

1. Aişə meşədən topladığı 1 kq moruğa 1 kq şəkər tozu qatmaqla mürəbbə hazırlamaq istəyir. 1 kq moruq təmizlənəndə 100 q çəkisini itirir. 5 kq şəkər tozu üçün nə qədər moruq toplanmalıdır?

2. Əli gəzinti üçün dördbucaqlı piramida formasında çadır qurmaq istədi. Hər üzə 2 m 30 sm parça işlənərsə, çadır üçün nə qədər parça lazımdır?

3. 30 ağac yarpağının üzərinə yığılmış yağış damcılarından 1 fincan su almaq olarsa, 4 fincan üçün üzərinə yağış damcıları yığılmış neçə ağac yarpağı lazımdır?

### Yaradıcı tapşırıq

Gəzinti zamanı istifadə etmək üçün tibbi çanta hazırlayın.

## Nitq quruculuğu

1. Siz Ömərin yerində olsaydınız daraq və falqa kağızından musiqi səslərini necə yaradardınız?

2. Əgər uşaqlar başqa zədə almış olarsa, siz hansı ilk yardımları göstərə bilərdiniz?

3. İnsan nə üçün öz maraq dairəsini genişləndirməlidir?

4. Əgər siz də belə bir çətinliklə qarşılaşsaydınız hansı bacarıqlarınızdan istifadə edərdiniz?

## Ev tapşırığı :

Meşəyə gedərkən hansı qabaqlayıcı tədbirləri görmək lazımdır? Bu işi planlayın və fikirlərinizi cədvəl üzrə qeyd edin.

Əli və Ömər məktəbdə keçirilən “101 nəfəs” adlı böyük bir layihə yarışmasına qatılmağa qərar verdilər. Onlar ekologiya mövzusunda bir layihə hazırlayaraq bu yarışmaya qatıldılar.

Layihə gününə qədər hər şey yaxşı gedirdi. Lakin layihənin təqdimatında Əli və Ömərin komandasında bəzi narazılıqlar yaranmağa başladı. Komanda üzvləri arasında layihənin hansı hissəsinin daha vacib olduğu və hansı üsullarla təqdim ediləcəyi barədə mübahisələr baş verdi. Mübahisələr layihənin düzgün təqdim edilməsinə mane olurdu və komandanın birliyi pozulurdu. Ömər qərara gəldi ki, komanda üzvlərini tək-tək dinləyib mübahisənin yaranma səbəbini aydınlaşdırsın. Əli əlavə etdi:

- Biz münaqişələri həll etməli və hər kəsin razı qalacağı bir yol tapmalıyıq.





Əli və Ömər birlikdə çalışaraq komanda üzvləri arasında münaqişələri həll etdilər və ortaq bir plan hazırladılar. Əli hər bir komanda üzvünün fikirlərini dinləyərək onların ehtiyaclarını və narahatlıqlarını anladı. Ömər isə hər kəsin razı qalacağı bir təqdimat planı hazırladı və komandanı bu plan üzrə yönəltdi.

Əli və Ömərin münaqişələri həll etmə bacarıqları sayəsində komanda üzvləri arasında narazılıqlar tez bir zamanda həll edildi. Onlar insanların bir-birinə qarşı hörmət etməyi və diqqətli davranmasını təmin etdilər. Layihənin daha nizamlı və uğurlu keçməsinə nail oldular. Bu hadisə Əli və Ömərin münaqişələri həll etmə bacarıqlarının və başqalarına göstərdikləri diqqətin nə qədər vacib olduğunu nümayiş etdirdi.

## Əl işi

1. Sinif yoldaşlarınız arasında verilmiş cədvələ əsasən ekologiya ilə bağlı sorğu keçirin. Apardığınız araşdırmaya görə ekologiyanın daha çox hansı səbəbdən çirkləndiyini qeyd edən şagirdlərin sayını əvvəlcə cədvəldə, sonra isə dairəvi diaqramda təsvir edin.

| **Ekologiyanın çirklənmə səbəbləri** | **Şagird sayı** |
|---|---|
| Zibilliklərin yandırılması | |
| Maşınlardan qazların buraxılması | |
| Sənaye zavodlarından zəhərli qazların axıdılması | |
| Suların çirkləndirilməsi | |

2. Ekologiyanın çirklənməsinin qarşısını almaq üçün “101 nəfəs” layihəsinin balaca ekoloqları yol kənarlarında ağac əkməyi təklif etdilər. Əgər 60 m uzunluğunda olan yolun hər iki tərəfinə bərabər aralıqda cəmi 12 ağac əkilərsə, iki ağac arasındakı məsafə nə qədər olar?

### Yaradıcı tapşırıq

“Yaşıl dünya” maketini hazırlayın.

## Nitq quruculuğu

“Yer kürəsinin qorunmasında ekologiyanın rolu” adlı təqdimat hazırlayın.

## Ev tapşırığı :

“Ekologiyanı qoruyaq” adlı divar qəzeti hazırlayın.

**Dərs 31**

## Müdrik Dəyərverən və faydalanan




Bir gün Fatimə məktəbdə keçiriləcək böyük bir elmi sərgi üçün layihə hazırlamağa qərar verdi. O, həyəcanlı idi. Bu sərgidə uğur qazanmaq istəyirdi. Fatimə öz layihəsini diqqətlə planladı və müxtəlif elmi məqalələr oxuyaraq çoxlu məlumat topladı.

Lakin sərgidən bir gün əvvəl Fatimə layihəsinin hələ də hazır olmadığını və bəzi hissələrin zəif olduğunu anladı.

Fatimə dedi: “Layihəm tam hazır deyil. Mən nə edəcəyəm? Özümü necə inkişaf etdirə bilərəm?”




Fatimə kömək məqsədi ilə sinif yoldaşlarına müraciət etdi. Şagirdlər Fatimənin layihəsinin zəif və güclü tərəflərini təhlil edərək əlavə yollar düşünməyə başladılar.

Fatimə layihəsinin zəif tərəflərini gücləndirmək üçün əlavə araşdırmalar apardı və yeni məlumatlar topladı. O, layihəsinə əlavə məlumatlar qeyd edərək təqdim etdi.

Fatimə və yoldaşları özünü dəyərləndirmənin iş dünyasında da nə qədər vacib olduğunu anladılar. Çünki özünü dəyərləndirmək insanların bir-birinə olan etibarını artırır və daha yaxşı iş mühiti yaradır.

## Əl işi

1. Fatimə 2 saatda 5 təqdimat hazırlayarsa, bir təqdimatın hazırlanması nə qədər vaxt aparar?

2. Uşaqlar 140 yeni məlumat topladılar. Bu məlumatların 30-u elmi məlumat, qalanları maraqlı dizayn nümunələrini əks etdirən məlumatlardır. Elmi məlumatların hər birinə 5 dəqiqə, maraqlı dizayn nümunələrini əks etdirən məlumatların hər birinə isə 4 dəqiqə vaxt sərf edildi. Məlumatların toplanılmasına cəmi nə qədər vaxt sərf edildi? Cavabı saat və dəqiqəyə çevirin.

### Yaradıcı tapşırıq

1. Zəif tərəfləri gücləndirmək üçün slayd hazırlayıb təqdim edin.

Tövsiyə: Təqdimatda uğur qazanan komandaya "Sabahın alimləri" müsabiqəsinə iştirakçı vəsiqəsi verilə bilər.

## Nitq quruculuğu

1. Sizcə, zəif tərəflərin vaxtından qabaq müəyyən edilməsi layihənin uğur qazanmasında nə qədər önəmlidir?

2. Güclü tərəflərimizi zənginləşdirmək üçün hansı addımları ata bilərik?

## Ev tapşırığı :

Özünü dəyərləndirmə vərəqələri hazırlayın.

## Haqbilən Vətənin haqqını təmin edən




Bir gün Ömər və Əli Azərbaycanın milli bayramlarından biri olan Qurtuluş Gününü qeyd etmək üçün xüsusi bir teatr tamaşası təşkil etməyə qərar verdilər. Onların məqsədi Azərbaycanın Qarabağ bölgəsinin tarixi haqqında məlumat vermək və milli dəyərləri vurğulamaq idi. Bu tamaşa beynəlxalq qonaqların iştirak edəcəyi bir tədbir üçün planlaşdırılmışdı. Onlar həmçinin bu tamaşanı planlayaraq və səhnələşdirərək biznes bacarıqlarını da inkişaf etdirmək istəyirdilər.

Ömər və Əli məktəbdə bir teatr tamaşası təşkil etmək üçün hazırlıqlara başladılar. Aişə və Fatimə bu tamaşanın ssenarisini yazmaq üçün könüllü oldular. Onlar Qarabağın tarixi, mədəniyyəti və önəmli hadisələri haqqında məlumatlar toplayaraq, ssenari yazdılar.

Ömər və Əli məktəbdəki sinif yoldaşlarını bu teatr tamaşasında iştirak etməyə dəvət etdilər. Onlar rolları bölüşdürərək hər birinə uyğun geyimlər və rekvizitlər tapdılar. Tamaşanın səhnələşdirilməsi üçün lazım olan bütün materialları və avadanlıqları topladılar. Hər bir sinif yoldaşı müəyyən bir tarixi şəxsiyyəti və ya hadisəni canlandırmaq üçün hazırlıqlara başladı.

Tamaşanın hazırlıqları zamanı Ömər və Əli bəzi problemlərlə qarşılaşdılar. Onlar səhnə üçün lazım olan bir neçə avadanlıqları təmin edə bilmirdilər və bəzi sinif yoldaşları öz rollarını düzgün yerinə yetirə bilmirdilər.



Əli dedi: "Səhnə üçün lazım olan avadanlıqlarımız çatmır və bəzi sinif yoldaşlarımız rollarını düzgün oynaya bilmir. Bu vəziyyətdə nə edəcəyik?"

Ömər əlavə etdi: "Biz əlavə avadanlıqlar tapmalı və sinif yoldaşlarımızı daha yaxşı hazırlamalıyıq. Amma bunu necə edəcəyik?"

Ömər və Əli birlikdə bir plan hazırladılar. Onlar lazım olan avadanlıqları təşkil etmək üçün sponsorluq dəstəyi aldılar. Eyni zamanda ssenarilərini daha təsirli etmək üçün bəzi dəyişikliklər etdilər. Sinif yoldaşları ilə əlavə məşqlər keçirərək onların rollarını daha yaxşı yerinə yetirmələrinə kömək etdilər.

Uşaqlar vətənpərvərlik mövzusunu öndə saxlamaqla müxtəlif fəaliyyətlər planlaşdırdılar:



| Plan |
|---|
| 1. Qarabağ tarixini və mədəniyyətini əks etdirən rəsmlər çəkmək |
| 2. Qarabağın tarixi, tanınmış şəxsiyyətlərini əks etdirən videoçarx hazırlamaq |
| 3. Qrafik dizayn texnologiyasından istifadə edərək Qarabağın zəngin mədəni irsini, milli geyimlərini əks etdirən sərgi hazırlamaq |
| 4. Beynəlxalq qonaqların Qarabağı əks etdirən milli aksesuarlara marağını hiss edərək onların satışını təşkil etmək |

Tamaşanın daha təsirli və yaddaqalan olması üçün Ömər və Əli müxtəlif multimedia elementlərindən istifadə etməyi qərara aldılar. Onlar Qarabağın tarixi haqqında arxiv videoları və fotoşəkilləri səhnədə nümayiş etdirdilər. Eyni zamanda tamaşanın bəzi səhnələrində canlı musiqi ifaları və milli rəqslər təqdim olundu.

Tamaşa günü gəldikdə məktəbin akt zalı dolu idi. Beynəlxalq qonaqlar da daxil olmaqla çoxlu insan tamaşanı izləmək üçün gəlmişdi. Ömər və Əli tamaşanı idarə edərək hər şeyin düzgün ardıcıllıqla getməsini təmin etdilər. Tamaşa başladıqda Qarabağın qədim tarixi, mədəniyyəti və əhəmiyyətli hadisələri səhnədə canlandırıldı. Uşaqlar rollarını böyük bir ustalıqla ifa etdilər və tamaşaçılar böyük maraqla izlədilər.

Ömər və Əli Azərbaycanın milli dəyərlərini və Qarabağın tarixi əhəmiyyətini vurğulayan bu tamaşanı müvəffəqiyyətlə təşkil etdikləri üçün çox qürur duydular. Onlar təşkil etdikləri teatr tamaşası vasitəsilə həm Qarabağın tarixi haqqında məlumat verdilər, həm də tamaşaçılarda vətənpərvərlik ruhunu artırdılar.

# Əl işi

1. Tamaşada iştirak etmək üçün 12 şagird məşqlərə başladı. Məşqin 1-ci hissəsi 09:00 -da başlayıb 11:00- da bitir. Yarım saat fasilədən sonra 2-ci hissə başlayır. 2-ci hissə də 2 saat davam edir. Əlavə olaraq hər şagirdə 15 dəqiqə fərdi təlim keçirilir. Gün ərzində məşqlərə neçə saat vaxt sərf olunur?

2. Sərgidə nümayiş etdirilən aksesuarların satışından 1500 manat gəlir əldə edildi. Əgər sərgidə 25 aksesuar varsa, hər aksesuardan 10 manat gəlir əldə edilibsə, aksesuarların maya dəyərini hesablayın.

3. Sərgidə rəsmləri çəkmək üçün 18 böyük molbert, 12 kiçik molbert alındı. Böyük molbertlərə 270 manat, bir kiçik molbertin qiyməti isə bir böyük molbertin qiymətindən 4 manat 30 qəpik ucuzdur. Kiçik molbertlərə nə qədər pul xərcləndi?

## Nitq quruculuğu

Qarabağ uğrunda canından keçən şəhidlərimiz haqqında kompozisiya hazırlayın.

## Ev tapşırığı :

2-ci Qarabağ müharibəsi şəhidlərinə həsr olunmuş fotoalbom düzəldin.

Bir gün Əli, Aişə, Ömər və Fatimə məktəbdə keçiriləcək hüquq və vətəndaşlıq bilgisi yarışmasına qatılmağa qərar verdilər. Məktəb rəhbərliyi hüquq və vətəndaşlıq bilgisi haqqında geniş məlumatı olan şagirdlərin cəmiyyətdə daha yaxşı liderlər olacağını vurğulayaraq bu yarışmanı təşkil etmişdi. Dostlar Azərbaycanın hüquq tarixi və hüquq mədəniyyəti haqqında daha çox məlumat öyrənərək bu yarışmada uğur qazanmaq istəyirdilər.

Əli, Aişə, Ömər və Fatimə kitabxanada hüquq tarixi haqqında məlumat toplamağa başladılar. Onlar Azərbaycanın qədim dövlətlərində, məsələn, Atabəylər dövlətində hüququn necə tətbiq olunduğunu və bu dövlətlərin hüquq sistemlərinin necə olduğunu öyrənmək istəyirdilər.

Aişə dedi: "Biz Atabəylər dövlətində hüququn necə olduğunu öyrənməliyik. Bu, Azərbaycanın hüquq tarixi haqqında bizə dərin məlumatlar verə bilər".



Əli əlavə etdi: “Bəli, biz həmçinin Azərbaycanın hüquq mədəniyyətini və hüquq sistemlərinin necə inkişaf etdiyini də öyrənməliyik”.

Onlar Atabəylər dövləti haqqında araşdırma aparmağa başladılar. Atabəylər Dövləti XII əsrdə Azərbaycanın güclü dövlətlərindən biri idi və burada hüquq sistemi yaxşı inkişaf etmişdi. Onlar öyrəndilər ki, Atabəylər dövlətində qanunlar çox ciddi şəkildə tətbiq olunurdu və hüquqi məsələlər məhkəmələrdə həll edilirdi.

Araşdırmalarının bir hissəsi olaraq Əli, Aişə, Ömər və Fatimə Nizami Gəncəvi və Atabəylər dövlət muzeyini ziyarət etməyə qərar verdilər. Muzeydə onlar Azərbaycanın böyük şairi Nizami Gəncəvinin əsərləri və Atabəylər dövləti dövrü haqqında geniş məlumatlar əldə etdilər. Nizami Gəncəvi öz əsərlərində hüquq və ədalət mövzularına da toxunurdu.




Atabegs of Azerbaijan

Muzeydə Fatimə dedi: “Nizami Gəncəvi əsərlərində hüquq və ədalət haqqında çox dərin fikirlər yazıb. Bu, hüquq tarixi haqqında daha yaxşı anlayış əldə etməyimizə kömək edir”.

Əli, Aişə, Ömər və Fatimə öz araşdırmalarını yekunlaşdıraraq, Azərbaycanın hüquq tarixi və hüquq mədəniyyəti haqqında geniş bir təqdimat hazırladılar. Onlar məktəbdə bu təqdimatı keçirərək, həmyaşıdlarına Azərbaycanın hüquq tarixi və hüquq mədəniyyəti haqqında məlumat verdilər.

Aişə dedi: “ Hüquq mədəniyyəti və hüquqi biliklər cəmiyyətin sabit və ədalətli olmasına kömək edir”.

Əli əlavə etdi: “ Hüquq sistemləri tarix boyu inkişaf edərək, bugünkü hüquq sistemimizə də təsir edib”.

Yarışma günü gəldikdə Əli, Aişə, Ömər və Fatimə öz biliklərini göstərmək üçün hazır idilər. Onlar Azərbaycanın hüquq tarixi və hüquq mədəniyyəti haqqında topladıqları məlumatları təqdim edərək, münsifləri və digər iştirakçıları heyran etdilər. Yarışmanın sonunda dostlarımız birinci yerə layiq görüldülər və məktəb rəhbərliyi tərəfindən təltif edildilər.

Onlar bu yarışmada hüquq tarixi və mədəniyyəti haqqında öz biliklərini daha da genişləndirərək, gələcəkdə yaxşı lider olacaqlarını sübut etdilər.

# Əl işi

1. Aişə hüquq araşdırması aparmaq üçün hər gün $\frac{4}{10}$ saat, Fatimə vətəndaşlıq bilgisi araşdırmasına $\frac{2}{6}$ saat vaxt ayırdı. Araşdırma müddəti 7 gün davam edibsə, qızlar bu iş üçün ümumilikdə nə qədər vaxt sərf ediblər?

2. Əli, Aişə, Fatimə və Ömər yarışma üçün bir oyun təşkil etdilər. Oyunda məntiqi sualları düzgün cavablandıran şagirdlər mükafatlandırıldı. Mükafatları almaq üçün 147 manat pul xərcləndi. Birinci, ikinci və üçüncü yerin qaliblərinə biri o birindən 2 dəfə baha olmaqla hədiyyələr bağışlanıldı. İkinci yerin qalibinə neçə manatlıq hədiyyə alındı?

## Yaradıcı tapşırıq

Atabəylər dövlətində istifadə olunan hərbi paqonların maketini hazırlayın.

## Nitq quruculuğu

1. Hüquq sistemini necə qurmaq istəyərdiniz?

2. Qədim Azərbaycan hüququndan hansı elementləri modern sistemə daxil edərdiniz?

# Multikultural mədəniyyətə loyal

Bir gün Əli, Aişə, Ömər və Fatimə məktəbdə keçirilən bilik yarışmasında qalib gəldilər. Onların mükafatı Azərbaycanın mədəniyyətini və tarixini təmsil etmək üçün beynəlxalq bilik yarışmasına göndərilmək idi. Məktəb rəhbərliyi onları bu tədbirdə iştirak etməyə göndərdi.

Əli, Aişə, Ömər və Fatimə Azərbaycanın mədəniyyətini, tarixini və adət-ənənələrini təqdim etmək üçün hazırlıqlara başladılar. Onlar milli rəqsləri, musiqiləri və yeməkləri tanıtmaq üçün müxtəlif materiallar topladılar. Həmçinin tədbir boyunca digər ölkələrdən gələn şagirdlərin mədəniyyətləri haqqında da məlumatlar öyrənməyi planlaşdırdılar.

Tədbir günü gəldikdə  hər kəs böyük bir həyəcanla tədbir zalına toplandı. Zalda müxtəlif ölkələrin bayraqları asılmış, hər ölkənin öz stendi qurulmuşdu. Əli, Aişə, Ömər və Fatimə də Azərbaycanın stendini quraraq milli geyimlər, xalçalar, musiqi alətləri və yeməklər təqdim etdilər.



Tədbir boyunca müxtəlif bilik yarışmaları keçirildi. Yarışma mövzuları yalnız mədəniyyətlə bağlı deyil, həmçinin elm, tarix, coğrafiya, incəsənət və digər mövzulardan da suallar verilirdi. Əli, Aişə, Ömər və Fatimə Azərbaycan haqqında məlumatlarını digər ölkələrin nümayəndələri ilə paylaşaraq yarışmalara qatıldılar. Onlar Azərbaycan tarixi, mədəniyyəti və ədəbiyyatı haqqında sualları cavablandıraraq, öz biliklərini nümayiş etdirdilər.

Yarışmalar zamanı onlar digər ölkələrdən gələn şagirdlərin mədəniyyətləri və elmi bilikləri haqqında məlumatlar öyrəndilər. Aişə  Yunanıstan mədəniyyəti və elmi nailiyyətləri haqqında bir qrupdan məlumat aldı, Əli isə Çin mədəniyyəti və tarixi haqqında məlumatlar topladı. Ömər və Fatimə isə Hindistan və Misir mədəniyyətləri, elmi nailiyyətləri haqqında məlumatlarla tanış oldular.

Tədbirin ən maraqlı tərəfi müxtəlif ölkələrdən gələn şagirdlərlə tanışlıq və dostluq idi.

Əli, Aişə, Ömər və Fatimə, digər ölkələrdən gələn şagirdlərlə söhbətlər etdilər, onların mədəniyyətləri haqqında məlumatlar öyrəndilər və öz mədəniyyətlərini tanıtdılar. Onlar öyrəndilər ki, hər bir ölkənin özünəməxsus adət-ənənələri və mədəniyyəti olsa da çoxlu oxşarlıqlar da var.



Bu tədbirdən sonra Əli, Aişə, Ömər və Fatimə multikulturalizmin nə qədər vacib olduğunu anladılar. Multikulturalizm insanların bir-birini daha yaxşı anlamasına və daha sülhsevər bir dünya yaratmasına kömək edir. Əli, Aişə, Ömər və Fatimə Azərbaycanın hüquq tarixi və hüquq mədəniyyəti haqqında geniş məlumatlar öyrənərək, həmyaşıdları ilə bu bilikləri paylaşdılar.

# Əl işi

1. Ömər beynəlxalq tədbirdə iştirak etmək üçün rayondan şəhərə 419 km 264 m yol getməlidir. Ömər 124 km 539 m getdikdən sonra məkana çatmaq üçün daha nə qədər yol getməlidir?

2. Beynəlxalq tədbirdə iştirak etmək üçün 130 şagird qeydiyyatdan keçib. Tədbir zalının tutumu isə 400 nəfərdir. Hər şagirdlə birlikdə ən çox iki valideyn tədbirə qatıla bilər. Əgər hər şagird iki valideyn gətirərsə, zalda ümumilikdə neçə nəfər olacaq? Neçə yer boş qalacaq?

## Yaradıcı tapşırıq

1. Gələn qonaqlara dostluq məktubu yazın.
2. Mədəniyyətimizi əks etdirən hədiyyə düzəldib təqdim edin.

## Nitq quruculuğu

Multikulturalizm mərkəzi yaradın. Uşaqları bu mərkəzə cəlb etmək üçün elanlar hazırlayın.

## Ev tapşırığı :

Azərbaycan multikulturalizmi haqqında araşdırma aparın.

## Ləyaqətli Estetik mədəniyyətə malik

Bir gün Aişə və Fatimə məktəbdə keçiriləcək sənət sərgisinə qatılmağa qərar verdilər. Tədbirin mövzusu "Azərbaycanın tarixi, milli dəyərləri və mədəniyyəti" idi. Onların məqsədləri estetik mədəniyyəti vurğulamaq və həmyaşıdlarına gözəllik və sənətin nə qədər vacib olduğunu göstərmək idi.

Aişə və Fatimə məktəbdə sənət sərgisi təşkil etmək üçün hazırlıqlara başladılar. Onlar Azərbaycanın estetik mədəniyyətini və milli dəyərlərini vurğulayan əsərlər - rəsm, heykəltəraşlıq və milli sənət nümunələri hazırlayaraq sərgidə nümayiş etdirməyi düşünürdülər.



Aişə və Fatimə məktəbdəki sinif yoldaşlarını bu sərgidə iştirak etməyə dəvət etdilər. Onlar hər bir şagirdin öz sənət əsərlərini yaratması və sərgidə nümayiş etdirməsi üçün lazım olan materialları və avadanlıqları topladılar. Sərginin təşkilində hər bir detalı diqqətlə planlaşdırdılar.

Sərginin hazırlıqları zamanı Aişə və Fatimə bəzi problemlərlə qarşılaşdılar. Bu vəziyyət sərginin müvəffəqiyyətlə həyata keçirilməsini təhlükə altına salırdı.

Fatimə dedi: "Sərgi üçün lazım olan materiallarımız çatmır və bəzi sinif yoldaşlarımız əsərlərini tamamlamayıb. Bu vəziyyətdə nə edəcəyik?"

Aişə əlavə etdi: "Biz əlavə materiallar tapmalı və sinif yoldaşlarımızı motivasiya etməliyik".


Sərgi üçün lazım olan materiallarımız çatmır və bəzi sinif yoldaşlarımız əsərlərini tamamlamayıb. İndi nə edək?
Biz əlavə materiallar tapmalı və sinif yoldaşlarımızı motivasiya etməliyik. Amma bunu necə edəcəyik?

Aişə və Fatimə birlikdə bir plan hazırladılar. Onlar lazım olan materialları təmin etmək üçün yerli sənət mağazalarına müraciət etdilər və sponsorluq dəstəyi aldılar. Eyni zamanda sinif yoldaşları ilə əlavə məşğələlər keçirərək, onların sənət əsərlərini vaxtında tamamlamalarına kömək etdilər.

Aişə və Fatimə də öz sənət əsərlərini yaratmağa başladılar. Aişə Azərbaycanın gözəlliklərini və təbiətini əks etdirən bir rəsm əsəri hazırladı, Fatimə isə milli ornamentlər və motivlərlə bəzədilmiş heykəltəraşlıq əsəri yaratdı.

Sərgi günü gəldi. Aişə və Fatimə sərgidə dostlarına kömək edərək hər şeyin düzgün getməsini təmin etdilər. Sərgi başladıqda şagirdlər və qonaqlar Azərbaycanın estetik mədəniyyətini əks etdirən əsərləri böyük maraqla izlədilər. Sərgi boyunca Azərbaycan tarixi, milli dəyərləri və mədəniyyəti haqqında geniş məlumatlar təqdim edildi.

Sərginin sonunda şagirdlər alqışlandı. Aişə və Fatimə Azərbaycanın estetik mədəniyyətini vurğulayan bu sərgini müvəffəqiyyətlə təşkil etdikləri üçün çox qürur duydular. Onlar həmçinin, bu sərgini təşkil edərkən öyrəndikləri biznes bacarıqları ilə də fəxr edirdilər. Əli, Aişə, Ömər və Fatimə Azərbaycanın hüquq tarixi və hüquq mədəniyyəti haqqında geniş məlumatlar öyrənərək həmyaşıdlarına bu bilikləri paylaşdılar.

# Əl işi

1. Aişə və Fatimə tədbir üçün hər biri ayrı-ayrılıqda 12 sənət əsəri hazırlamalıdır. Lakin Fatimə hazırlıq zamanı son 2 əsəri bitirə bilmədi. Aişə isə əlavə olaraq 3 əsər də hazırladı. Onlar birlikdə cəmi neçə əsər hazırladılar?

2. Sərginin təşkili üçün Aişə və Fatimə hər biri 30 dəqiqə vaxt sərf edirlər. Lakin hazırlıqlar zamanı bəzi problemlər yarandı. Aişə əlavə 20 dəqiqə, Fatimə isə əlavə 10 dəqiqə vaxt sərf etməli oldu. Sərginin təşkili üçün ümumilikdə nə qədər vaxt sərf olundu?

3. Sərgi üçün 10 fərqli rəsm və dekorativ sənət əsəri hazırlamaq tələb olunurdu. Fatimə 4 dekorativ sənət əsəri hazırladı. Aişə isə qalan sayda rəsm əsəri hazırlamalı idi. Lakin sərgi gününə bir gün qalmış Aişənin hazırladığı əsərlərdən biri tamamlanmır. Tamamlanan əsərlərdən cəmi 253 manat gəlir əldə edildi. Rəsm əsərlərinin hər birindən 25 manat gəlir əldə edilərsə, bir dekorativ sənət əsərindən əldə olunan gəliri hesablayın.

## Yaradıcı tapşırıq

1. Milli ornamentlərdən istifadə edərək şəbəkə hazırlayın.

2. Şəbəkəni harada istifadə edəcəyiniz haqqında plan qurun.

## Nitq quruculuğu

Qədim əşyalar satılan mağazalara gedərək məlumat toplayın. Resursların idarə olunması bacarıqlarınızdan istifadə edərək təqdimat hazırlayın.

## Ev tapşırığı :

Evdə olan materiallardan istifadə edərək, çərçivədə dekorativ tətbiqi sənət əsəri yaradın.

Əli, Aişə, Ömər və Fatimə məktəbdə keçiriləcək böyük bir layihə yarışmasına qatılmağa qərar verdilər. Layihənin mövzusu məktəbin ətraf mühitini yaxşılaşdırmaq üçün yeni və yaradıcı bir plan hazırlamaq idi. Qalib gələn komanda məktəb rəhbərliyindən mükafat və layihələrinin həyata keçirilməsi üçün dəstək alacaqdı.

Dostlar birlikdə çalışaraq məktəbin ətraf mühitini yaxşılaşdırmaq üçün çox maraqlı bir layihə hazırladılar. Layihə məktəb bağçasının yenilənməsi, tullantıların düzgün şəkildə çeşidlənməsi və təkrar emal edilən materialların istifadəsini əhatə edirdi. Lakin layihənin təqdimatından bir gün əvvəl Fatimə təsadüfən başqa bir komandanın layihə sənədlərini gördü və onların layihəsinin də çox yaxşı olduğunu anladı.

Fatimə dostlarına bu vəziyyəti izah etdi: “Mən təsadüfən başqa bir komandanın layihə sənədlərini gördüm və onların layihəsi də çox yaxşıdır. Bizim qalib gəlmək şansımız daha azdır”.



Əli, Aişə, Ömər və Fatimə arasında müzakirə başladı. Əli dedi: "Biz öz layihəmizi daha da yaxşılaşdırmaq üçün onların məlumatlarından istifadə edə bilərik. Amma bu düzgün olmaz".

Aişə əlavə etdi: "Biz vicdanlı olmalıyıq. Bu məlumatları istifadə etmək ədalətli deyil".

Ömər isə: "Bəlkə də biz öz layihəmizə güvənməliyik. Amma bu yarışmada qalib gəlmək çox vacibdir".

Fatimə vicdanının səsini dinləyərək dedi: "Biz dürüst hərəkət etməliyik. Bu məlumatları istifadə etmək ədalətsizlik olar".

Onlar belə qərara gəldilər ki, başqasının əməyini mənimsəmək olmaz. Çünki bu həm ədalətsizlik olar , həm də vicdanlı insanlara yaraşmaz. Əli, Ömər, Fatimə və Aişə öz bacarıqlarına güvənərək yenidən planları üzərində işləyib genişləndirdilər. Onlar bu layihənin təşkilatçıları olduqları üçün daha yaxşı ideya fikirləşməli idilər. Maraqlı bir plan qurdular:

| | |
|---|---|
| 1. | Uşaqları komandalara ayırmaq |
| 2. | Hər komanda arasında iş bölgüsünü təşkil etmək |
| 3. | Çiçəklər əkilmiş sahənin daha da cəlbedici görünməsi üçün rəngarəng taxtalarla hasarlamaq |
| 4. | Məktəbyanı sahəni alaq otlarından təmizlənmək |
| 5. | Boş sahələrdə ağaclar əkmək |
| 6. | Ekoloji çeşidli tullantı qablarını yerləşdirmək |

Dostlar birlikdə vicdanlarının səsini dinləyərək düzgün olanı etməyə qərar verdilər. Onlar başqa komandanın layihə sənədlərindən istifadə etməməyi və öz layihələrini dəyişdirməyərək, işə davam etməyi qərara aldılar. Öz güclərinə güvənərək, layihələrini olduğu kimi təqdim etməyə qərar verdilər.

Təqdimat günü gəldikdə dostlar layihələrini məktəb rəhbərliyinə və digər komandalara təqdim etdilər. Onların layihəsi böyük maraqla qarşılandı və məktəb rəhbərliyi tərəfindən yüksək qiymətləndirildi. Digər komandanın layihəsi də çox yaxşı idi, lakin dostların layihəsi daha yaradıcı və ətraf mühitə daha çox faydalı idi.




Əli, Aişə, Ömər və Fatimə vicdanlı davranaraq düzgün olanı etdilər və öz güclərinə güvənərək, yarışmada qalib gəldilər. Onların layihəsi, məktəbin ətraf mühitini yaxşılaşdırmaq üçün həyata keçirildi və dostlar böyük bir məmnuniyyət və qürur hissi yaşadılar.

Bu hadisə dostların vicdanlı davranmalarının nə qədər vacib olduğunu nümayiş etdirdi.

## Əl işi

1. Aişə, Fatimə, Əli, Ömər məktəbin ətraf mühitini yaxşılaşdırmaq üçün tullantıların ayrılmasına və təkrar emal edilməsinə xüsusi diqqət yetiriblər. Onlar məktəbdə 160 kq tullantı olduğunu müəyyən ediblər. Bu tullatıların 50 kq-ı plastik, 40 kq-ı kağız, 20 kq-ı şüşədir. Qalanları qarışıq tullantılardır.

a) Şüşə tullantıları qarışıq tullantılardan neçə kiloqram azdır?

b) Plastik tullantıları 4 ədəd doqquz kiloqramlıq paketlərə yığsaq nə qədər plastik tullantı paketlənməmiş qalacaq?

## Yaradıcı tapşırıq

1. Layihənin daha da marağa səbəb olması üçün verilmiş plana alternativ məsləhətlər əlavə edin.

2. Çeşidli tullantı qablarına yeni dizayn verin, fərqli loqolar hazırlayın.

3. Təkrar emala gedən məhsullar haqqında maarifləndirici broşürlər hazırlayın.

## Nitq quruculuğu

1. Sizcə başqasının sənədlərinə, şəxsi qovluğuna icazəsiz baxmaq doğrudurmu?
2. Əgər siz də təsadüfən başqasının hazırladığı tapşırığı, məlumatı görsəydiniz necə hərəkət edərdiniz?

## Ev tapşırığı :

Yaradıcı ekoloji layihə fikirləşin, ətraf mühitə necə təsir edəcəyini düşünün yazılı təqdimat hazırlayın.

Əli böyük bir həyəcanla “Milli 6-lıq” çempionatına qatılmağa qərar verdi. Bu çempionat Azərbaycanın milli dəyərlərini təmsil edən altı fərqli idman növünü əhatə edirdi: at sürmə, oxatma, qılıncoynatma, nizəatma, üzgüçülük və güləş. Hər bir idman növü Azərbaycan tarixi və mədəniyyəti ilə sıx bağlı idi və Əli bu idman növlərində bacarıqlarını göstərmək üçün çox çalışmışdı.

Çempionatın ilk günündə at sürmə yarışmasında Əli çox yaxşı nəticə göstərdi və birinci yeri tutdu. Lakin yarışmanın ikinci günü oxatma yarışmasında bəzi iştirakçılar arasında narazılıqlar və mübahisələr baş verdi. Bəzi iştirakçılar hakimlərin qərarlarının ədalətsiz olduğunu düşündülər.

Əli şagirdlər arasında oxatma yarışmasını təşkil etdi.



Əli şagirdlərə bildirdi ki, yarışmanı keçirtmək üçün çərxifələk taxtası və xal kartları hazırlamaq lazımdır. Şagirdlər tez bir zamanda verilən tapşırığı hazırlamaq üçün işləri öz aralarında ədalətli bölərək icra etdilər.


Uşaqlar nədir problem?
Hakimlərin qərarları heç də ədalətli deyil.
Milli Altılıq və
Mütəhərrik Oyunlar
xallar
10 12
14 16

İki komandaya bölünən şagirdlər xal qazanmaqla qalib olmağa çalışdılar. Hakim rolunda iştirak edən Əli xal qazanmada qəsdən ədalətsizliyə yol verdi. Ədalətsiz yanaşmanı aradan qaldırmaq üçün problemli situasiya yaratdı. Uşaqlar arasında yaranan narazılığı həll etmək üçün müxtəlif mühakimələr dinlənildi. "Sinif küncləri" üsulundan istifadə edərək, uşaqların fikirləri dinlənildi.

Sinif küncləri:

**- Razıyam**

**- Razı deyiləm**

**- Əmin deyiləm**

Mühakimələri sübuta yetirmək üçün uşaqların fikirləri dinlənildi. Uşaqlar əsaslı arqumentlər gətirərək, ədalətli qərar verməyə nail oldular.

Əlinin ədalətli yanaşması sayəsində oxatma yarışmasında yaranan narazılıqlar tez bir zamanda həll edildi. O, insanların bir-birinə qarşı hörmətli və ədalətli davranmasını təmin edərək, yarışmanın daha nizamlı və uğurlu keçməsini təmin etdi.

# Əl işi

1. Oxatma yarışmasında uşaqların topladığı xalların cəmi ikirəqəmli ədəddir. Bu ədədin onluq mərtəbəsindəki rəqəm təklik mərtəbəsindəki rəqəmdən 3 vahid çoxdur. Bu rəqəmlərin yerini dəyişsək, ədəd nə qədər azalmış olar?

a) 25 b) 27 c) 18 d) azalmaz

2. Yarışmada iştirak edən atlı yolun $\frac{4}{7}$ hissəsini 2 saata getmişsə, $\frac{6}{7}$ hissəsini neçə saata gedər?

a) 3 saat b) 4 saat c) 5 saat d) 6 saat

## Yaradıcı tapşırıq

“Milli 6-lıq” çempionatında iştirak edən azarkeşlər üçün həvəsləndirici pankartlar hazırlayın.

## Nitq quruculuğu

Mətndə verilmiş idman növlərinin tarixi haqqında məlumat toplayıb təqdimat hazırlayın.

Bir gün Aişə və Fatimə kimsəsiz uşaqlara dəstək olmaq və onların həyatına sevinc qatmaq üçün uşaq evinə getməyə qərar verdilər. Oradakı uşaqlarla vaxt keçirmək, onlara rəsm və tikmə dərsləri keçmək istəyirdilər. Məqsədləri uşaqlara həm Azərbaycanın milli simvollarını və ornamentlərini öyrətmək, həm də onları sevindirmək idi.

Aişə və Fatimə uşaq evinə gəldilər. Onlar gətirdikləri ləvazimatları uşaqlara payladıqdan sonra dünyagörüşlərini artırmaq məqsədilə Azərbaycanın simvolları və rəmzləri haqqında sorğu apardılar.

Aişə rəsm dərsi keçməyə başladı. Bu zaman gətirdikləri ləvazimatların sayının az olduğunu gördü. Bunun üçün yoldaşlarına müraciət edərək tez bir zamanda onlardan kömək istədi. Yoldaşları müəyyən miqdarda pul toplayıb çatışmayan ləvazimatları əldə etdilər.





Rəsm dərsindən sonra Fatimə uşaqlara tikmə dərsi keçməyə başladı. O, uşaqlara milli geyimlərin tikilməsi və ornamentlərin istifadəsi haqqında məlumat verdi. Aişə və Fatimənin xeyirxahlığı uşaqların üzündə böyük bir təbəssüm yaratdı.

Şagirdlər uşaq evində apardıqları xeyriyyə işi haqqında məqalə yazdılar. Məqalə bir çox qəzet və jurnallarda çap olundu. Alınan qonorarı uşaq evinin hesabına köçürtdülər.

Bu hekayə Aişə və Fatimənin xeyirxah yanaşması ilə çətinlikləri necə tez və effektiv şəkildə həll etməyə kömək etdiyini göstərdi. Xeyirxahlıq və başqalarına göstərilən diqqət hər bir problemi həll etmək üçün vacib olan əsas keyfiyyətlərdəndir. Bu xüsusiyyətlər iş dünyasında da uğurun açarıdır.

# Əl işi

1. Məktəbin şagirdləri xeyirxah işə qoşularaq uşaq evinə aparmaq üçün rəngli karandaş və albomlar hədiyyə etdilər. Verilən ədədləri 15-ə bölünən ədədlər və 12-yə bölünən ədədlər olmaqla Venn diaqramında təsvir edin: 1395, 1476, 1440, 2280, 1575, 2412

Venn diaqramına əsasən 15-ə bölünən ədədlərin cəmi qədər karandaş, 12-yə bölünən ədədlərin cəmi qədər isə albom hədiyyə olundu. Hədiyyə olunan karandaşların və albomların ayrı-ayrılıqda sayını tapın.

2. 2 şagird 20 dəqiqəyə 60 buta tikərsə, həmin sürətlə 4 şagird 5 dəqiqəyə neçə buta tikər?

## Yaradıcı tapşırıq

Siz də milli simvollar və ornamentlər hazırlayın. Rəngli saplar və lentlərlə bəzəyib məktəbin dərnək otağına hədiyyə edin.

## Nitq quruculuğu

Əgər körpələr evinə sovqat aparsaydınız, hədiyyəniz nə olardı? Səbəbini izah edin.

## Ev tapşırığı :

Milli ornamentlərdən ibarət rəsm əsəri çəkin.

# Ləyaqətli Etibarlı (Güvənli, Sadiq)

Ömər məktəbdə keçiriləcək böyük bir sağlamlıq araşdırması layihəsinə qatılmağa qərar verdi. Layihənin məqsədi uşaqların sağlam olmaları üçün nə edə biləcəklərini öyrənmək idi. Ömər topladığı məlumatların dəqiq və etibarlı olmasının vacibliyini bilirdi, çünki dostları və müəllimləri ona güvənirdilər.

Araşdırmaya başladıqda Ömər bir çox şagirdin bütün dərs günü masa arxasında oturduğunu, bu vəziyyətin onların onurğa və göz sağlamlığına zərərli olduğunu gördü. Oturaq həyat tərzi uşaqlarda onurğa əyriliklərinə və görmə problemlərinə səbəb olurdu. Ömər bu mövzuda dəqiq məlumatlar toplamalı və dostlarına etibarlı məsləhətlər verməli idi.

Toplantı təşkil edərək valideynləri və şagirdləri məlumatlandırdı. Toplantıda tibb mütəxəsislərinin və idman müəllimlərinin söylədikləri və göstərdikləri videoçarx valideynləri ciddi narahat etdi. Bundan sonra məktəbin idman zalında vaxtaşırı məşqlər çoxaldıldı. Müayinələrə vaxtında gedildi. Düzgün oturuş, oxu, yazı, kitabla göz arasındakı məsafələr nəzərə alındı. Siniflərdə həkim və tibb bacısının nəzarəti gücləndirildi.



Əli bu nöqsanları aradan qaldırmaq üçün idman həftəsi keçirməyi qərara aldı. Bunu cədvəl şəklində şagirdlərə təqdim etdi. “Sağlam  həftə” çərçivəsində qarşıya çıxan problemlərin həll  yolu tapıldı.

| I gün | II gün | III gün | IV gün | V gün |
|---|---|---|---|---|
| Səhər gimnastikası | İdman nailiyyətləri olan idmançılarla görüş | Sağlam qidalanma ilə bağlı maarifləndirmə tədbirləri | “Şən startlar” estafet yarışının keçirilməsi | Esse |
| İdman növləri haqqında | İdman viktorinası | Rəsm müsabiqəsi | Basketbol yarışı | Təqdimat |
| İdmançıların yarışa hazırlığının psixoloji yanaşması | “Olimpiyada oyunları uşaqların gözü ilə” əl işi | “Ən sürətli şagird” qaçış yarışı | Qol güləşi | Mükafatlandırma |

Ömərin etibarlı yanaşması sayəsində məktəbdəki uşaqların sağlamlığına dair araşdırma layihəsi çox uğurlu oldu. Bu hadisə Ömərin etibarlı olmasının və başqalarına göstərdiyi diqqətin nə qədər vacib olduğunu nümayiş etdirdi.



# Əl işi

1. 45 dəqiqə dərs saatı müddətində ilk 15 dəqiqədən sonra 3 dəqiqə idman fasiləsi, digər 15 dəqiqədən sonra 3 dəqiqə göz trenajoru edilir. Şagird 4 dərs saatı müddətində neçə dəqiqə idman fasiləsi edir?

2. Siniflər arasında "Şən start" yarışı keçirilirdi. Basketbol yarışı 1 saat 50 dəqiqə davam edib 14:20-də bitərsə, yarış saat neçədə başlamışdır?

## Yaradıcı tapşırıq

2 qrupa ayrılaraq sağlamlığa düzgün riayət edən və sağlamlığını qorumayan insanlar haqqında pankartlar hazırlayıb siniflər arasında paylayın.

## Nitq quruculuğu

Gün rejiminin pozulması insan sağlamlığına nə kimi təsir edər?

## Ev tapşırığı :

Düzgün oturmamağın onurğa sütununa, telefon və kompütерə baxmaqla gözə, sağlam qidalanmadıqda orqanizmə hansı mənfi təsirləri olduğunu araşdırın.

Bir gün Əli, Aişə, Ömər və Fatimə məhəllələrində böyük bir xeyriyyə tədbiri təşkil etməyə qərar verdilər. Tədbirin məqsədi kimsəsiz uşaqlar üçün pul, ikinci əl paltarları və oyuncaqlar toplamaq idi. Onlar insanların həm əylənə biləcəyi, həm də səxavətli ola biləcəyi bir mühit yaratmaq istədilər.

Tədbir günü gəldikdə hər şey yaxşı başladı. İnsanlar tədbirə axın etdilər və əyləncəli fəaliyyətlərdə iştirak etməyə başladılar. Lakin bir neçə saat keçdikdən sonra bəzi insanlar ianə qutularının yerini izdihamda tapmaqda çətinlik çəkdilər. Digər tərəfdən isə ianələr gözlənildiyi kimi toplanmırdı.

Bu vəziyyətdə dostların diqqətli yanaşmaları çox faydalı oldu. Əli və Ömər ianə qutularının yerini göstərən lövhələr hazırladılar və onları tədbirin müxtəlif yerlərində yerləşdirdilər. Həmçinin, insanlara ianə qutularının yerini göstərmək üçün könüllü olaraq fəaliyyət göstərdilər.



Bundan başqa Əli səsucaldan vasitəsilə səxavətli olmağa aid şüarlar səsləndirərək ianə qutularının yerlərini iştirakçılara məlumat verirdi. Əlavə olaraq insanları bu işə cəlb etmək üçün düzgün strateji mövqe tutmaq qərarına gəldi. O, bunun üçün uşaqlarla birlikdə reklam çarxları və məktublar hazırlayaraq insanları səxavətli olmağa səslədi.



Səxavətlilik və başqalarına göstərilən diqqət hər bir problemi həll etmək üçün vacib olan əsas keyfiyyətlərdəndir, çünki əməkdaşlar və müştərilər arasında yaxşı münasibət qurmaq və işləri səmərəli idarə etmək üçün səxavətli olmaq vacibdir.

## Əl işi

1. Şagird oyun zamanı qazanacağı məbləği xeyriyyə işi üçün xərcləyəcəyini bildirdi. O hər düzgün cavab üçün 4 manat qazanır, hər səhv cavab üçün 1 manat itirirdi. Şagird 40 sual cavablayaraq cəmi 120 manat qazanarsa, düzgün cavablandırdığı sualların sayını tapın.

2. Hər bir ianə qutusu 30 top, 20 oyuncaq, 50 kitab tutur. Bir topun qiyməti 4 manat 75 qəpik, bir oyuncağın qiyməti 12 manat 65 qəpik, bir kitabın qiyməti isə bir topun qiymətindən 1 manat 35 qəpik baha olarsa, 10 belə ianə qutusu üçün nə qədər pul xərclənmiş olar?

## Yaradıcı tapşırıq

Siz də insanları səxavətli olmağa səsləyən məktublar yazın.

## Nitq quruculuğu

Səxavətli olmaq üçün insanda hansı mənəvi keyfiyyətlər formalaşdırılmalıdır?

## Ev tapşırığı :

Siz də səxavətli olmaq haqqında şüarlar hazırlayın və təqdim edin.



Bir gün Əli və Ömər Əlinin valideynlərinə məxsus olan kiçik bir mağazada könüllü olaraq işləməyə qərar verdilər. Mağaza məhəllə sakinlərinin tez-tez alış-veriş etdiyi bir yerdir və müştərilərə xidmət göstərmək üçün çox iş tələb edirdi. Əli və Ömər həm təcrübə qazanmaq, həm də valideynlərinə kömək etmək istəyirdilər.



Mağaza çox sıx idi və Əlinin valideynləri hər kəsə eyni anda xidmət göstərməkdə çətinlik çəkirdilər. Müştərilər bəzən səbirsiz davranır və narazı qalırdılar. Əli və Ömər dərhal kömək etməyə başladılar. Lakin müştərilərin ehtiyaclarını və arzularını anlamaq üçün qayğıkeş və nəzakətli bir yanaşmanın vacibliyini anladılar.

Əli və Ömər mağazaya yeni dizayn verdilər, mağazada səliqə-sahman yaratdılar, vitrinləri bəzədilər. Mağazada xoş əhval-ruhiyyə yaratdılar. Alıcı bolluğu yarandı. Rəy kitabına xoş sözlər yazıldı.

Ömər isə müştərilərə yardım etməklə yanaşı, onlarla mehriban və səmimi söhbət edirdi. Müştərilərə müxtəlif təkliflər verərək, onların alış-veriş təcrübəsini daha yaxşı hala gətirdi.

Əli və Ömər birlikdə çalışaraq mağazadakı problemləri tez bir zamanda həll etdilər. Onların qayğıkeş və mehriban yanaşması müştərilərin mağazada daha çox vaxt keçirməsinə və daha çox alış-veriş etməsinə səbəb oldu. Əlinin valideynləri bu vəziyyətdə çox sevincli idilər, onlar müştərilərdən çox müsbət rəy alırdılar.

Əli və Ömərin qayğıkeşliyi və başqalarına göstərdikləri diqqət sayəsində bu problemi asanlıqla həll etdilər.

# Əl işi

1. Əli bir müştəriyə təxminən 4 dəqiqə xidmət göstərir. Mağaza 8 saat işləyərsə, Əli maksimum neçə müştəriyə xidmət göstərə bilər?

2. Ömər bir müştəri ilə söhbət edərək 5 dəqiqə yardım göstərir. 6 saata neçə müştəri yola salar?

## Yaradıcı tapşırıq

**Təsəvvürünüzdə olan və yaratmaq istədiyiniz bir mağazaya**

- Ad seçin.
- Mağazanın dizaynını qurun.
- Müştərilərə necə xidmət göstərəcəyinizi təsvir edin və səhnələşdirin (mehriban ünsiyyət, qayğıkeş münasibət göstərməyi unutmayın).

## Nitq quruculuğu

1. Siz müştəriləri mağazanıza cəlb etmək üçün necə ünsiyyət qurardınız?

2. Nitq etiketlərin istifadə edərək dialoq yazın.

**Dərs 42**

**Ləyaqətli**

## Nəzakətli (xoşrəftar, etik qaydalara riayət edən)



Buna görə onlar iş planı qurdular. Bu işin çoxluğunu nəzərə alıb şagirdlərdən ibarət könüllü dəstəsi yaratdılar. Könüllüləri görəcəkləri işlərin planı ilə tanış etdilər.

1. **Müştəriləri qəbul etmək.**
2. **Müştərilərin maraqlarına görə istiqamətləndirmək.**
3. **Nizam-intizam qaydalarına nəzarət etmək.**
4. **Təmizliyə nəzarət etmək.**
5. **Çay, kofe təşkil etmək.**
6. **Texniki avadanlıqları idarə etmək.**

Aişə dedi: "İnsanlar bir-birinə qarşı nəzakətli davranmır. Bu vəziyyətdə nə edəcəyik? "

Fatimə əlavə etdi: "Biz onlara nəzakətli olmağın vacibliyini göstərməliyik".

Fatimə səsucaldan vasitəsilə mütəmadi olaraq bu fikirləri müştərilərin diqqətinə çatdırdı:

1. **İnsanın davranışı və danışığı onun mədəniyyətinin göstəricisidir.**
2. **Davranış və nəzakət qaydalarına riayət etmək digər insanlara hörmət deməkdir.**
3. **Bu onların duyğularına qiymət verməyiniz mənasına gəlir.**
4. **Əslində insanların ictimai həyatda bir-birindən gözlədiyi hərəkətlər davranış qaydalarının əsasını təşkil edir.**

Bu vəziyyətdə Aişə və Fatimənin nəzakətli davranışları çox faydalı oldu. İnsanlar daha nəzakətli davranmağa başladılar.

Onların bu yanaşmaları yarmarkaya gələnlər tərəfindən çox müsbət qarşılandı. Bu işdə nəzakət və hörmət vacib olan əsas keyfiyyətlərdəndir. Çünki müştərilərlə yaxşı münasibət qurmaq, işləri səmərəli idarə etmək üçün nəzakət və hörmət çox vacibdir.

## Əl işi

1. Çay və kofe satışında şagirdlərdən ibarət komanda təşkil edildi. Komandada 4 çay hazırlayan şagird və 6 kofe hazırlayan şagird iştirak edirdi. Sonda çay hazırlayan şagirdlər hər biri bərabər məbləğdə olmaqla ümumi olaraq 20 manat pul qazandılar. Kofe hazırlayan şagirdlərin hər birinin aldığı pul isə çay hazırlayan şagirdlərin birinin qazandığı məbləğdən 1 manat çox idi. Şagirdlər komanda olaraq çay və kofedən ümumilikdə nə qədər pul qazandılar?

2. Ayxan sərgidə bir kitabın hər 15 səhifəsini 50 dəqiqəyə oxuyur, sonra müştərilərin ucadan səsləri ona mane olduğu üçün 20 dəqiqə dincəlir. Bu qayda ilə o, kitabı oxumağa cəmi 6 saat 40 dəqiqə vaxt sərf edərsə, kitab neçə səhifədir?

a) 60 b) 75 c) 80 d) 90

### Yaradıcı tapşırıq

Nəzakətli davranış qaydalarından istifadə edərək bukletlər, pankartlar, broşürlər hazırlayın.

## Nitq quruculuğu

Müxtəlif sahələrlə bağlı nizam-intizam qaydalarına aid təqdimat hazırlayaraq çıxış edin.



Bir gün məktəbdə nahar fasiləsi zamanı Əli və Ömər yeməkxana sahibinin problemlə üzləşdiyini gördü. Şagirdlərin çoxu yeməkxanadan narazı idi. Bəzi yeməklər həmişə tez bitirdi, bəziləri isə sevilmədiyi üçün alınmırdı. Bu narazılıqların sayı artdığı üçün yeməkxana idarəçisi Əli və Ömərə yaxınlaşıb kömək istədi. O, vəziyyəti düzəltmək üçün yeni bir sistem qurmaq niyyətində idi.

Əli və Ömər yeməkxanadakı problemi analiz etmək qərarına gəldilər. Onlar yeməkxanadakı yeməklərin hansı günlərdə tez bitdiyini, şagirdlərin hansı yeməkləri daha çox sevdiyini öyrənmək üçün müşahidələrə başladılar.

Uşaqlar statistik məlumatlardan istifadə edərək hər gün üçün şagirdlərin yemək tələblərini öyrəndilər. Məlum oldu ki, həftənin bəzi günlərində bəzi yeməklərə tələbat çox idi. Məsələn, bazar ertəsi makaron daha çox sevilirdi, ancaq yeməkxana bu günlərdə yetərincə makaron hazırlamırdı. Digər tərəfdən şagirdlərin sevmədiyi yeməklərin hazırlanması israfçılığa səbəb olurdu.

Şagirdlər arasında keçirilən sorğuya əsasən Əli və Ömər statistik məlumatlar hazırladılar. Onlar şagirdlərin rəylərini analiz edərək uzaqgörən bir strategiya yaratmaq qərarına gəldilər. Onlar yeməkxana üçün həftəlik tələbat cədvəli hazırladılar. Həmçinin yeməkləri fərqli variantlarla sınaqdan keçirmək üçün "test günləri" təşkil etdilər. Beləliklə, ən çox sevilən yeməkləri seçmək mümkün oldu. Bundan sonra yeməkxana idarəçisi məktəbin yeməkxanasında tələblərə uyğun yeməklər hazırlamağa başladı. Həftəlik menyular öncədən planlandı və şagirdlərin bəyəndiyi yeməklər daha çox diqqətə alındı. Yemək qalıqları azaldı, narazılıqlar aradan qalxdı və yeməkxana daha çox sevilməyə başladı. Buna görə yeməkxana idarəçisi uşaqlara göstərdikləri kömək və dəstəyə görə təşəkkür etdi.




Əli və Ömər başa düşdülər ki, bir problemin həlli bəzən bugünkü vəziyyəti deyil, sabahkı vəziyyəti də düzəltməyə yönəlik olmalıdır. Bu təcrübə onlara statistikaların və uzaqgörən düşüncənin iş dünyasında nə qədər əhəmiyyətli olduğunu göstərdi.

# Əl işi

1. Əli və Ömərin statistik nəticələri cədvəldə qeyd olunub. Cədvələ əsasən sualları cavablandırın:

- Şagirdlərin yemək tələbatlarına görə hansı qidalar daha çox faydalıdır? Sizcə, hansı qidalar tamamilə siyahıdan çıxarılmalıdır?
- Test günü üçün hansı yeməkləri əlavə edərdiniz? Səbəbini izah edin.

| **Həftənin günləri** | **Tələbatı çox sayda olan yeməklər** | **Tələbatı az sayda olan yeməklər** |
|---|---|---|
| Bazar ertəsi | Makaron və ətli kotlet | Pomidor şorbası və tərəvəz içlikli pirojki |
| Çərşənbə axşamı | Toyuq ətli burger və dovğa | Qarışıq pizza və brokkoli şorbası |
| Çərşənbə | Toyuq kotleti və qarabaşaq | Tərəvəzli şorba və qutab |
| Cümə axşamı | Pendirli pizza və mərci şorbası | Toyuq şorbası və tərəvəz salatı |
| Cümə | Qızardılmış toyuq və düyü | Toyuq şorbası və kartof pirojkisi |

2. Əli və Ömərin topladıqları məlumata əsasən bazar ertəsi, çərşənbə axşamı və cümə günü seçilən qidalarda tələbatı çox olan yeməklərə üstünlük verilir . Çərşənbə və cümə axşamında isə əsasən az tələb olunan şorbalar və tərəvəzli qidalar seçilir.

- Şagirdlər a) 1 ay ərzində b) 1 il ərzində cəmi neçə gün tələbatı çox olan yeməklər yeyirlər?
- Şagirdlər I yarımil ərzində neçə gün tələbatı az olan yeməklər yeyirlər?

## Yaradıcı tapşırıq

**Menyu tərtib edin:**
Menyuda sağlam qidalanmaya diqqət çəkmək üçün hansı şəkillər olmalıdır?
Menyuda hansı məlumatları yerləşdirərdiniz? Nümunəyə uyğun hazırlayın.

## Nitq quruculuğu

Bir problem düşünün. O problemin həll yollarını müzakirə edin. Həmin problemə elə həll yolu seçin ki, problemin həlli tək bugünkü vəziyyəti deyil, sabahkı vəziyyəti də düzəltməyə yönəlik olsun.

## Ev tapşırığı :

Süd məhsullarının insan sağlamlığında rolu haqqında araşdırma aparın.

Fatiməgilin küçəsində qədim əşyalar satan qoca Rəşid baba var idi. Rəşid babanın dükanında gəlir azalmışdı və gəlirin artmasının yolunu axtarırdı. Fatimə, Aişə, Əli, Ömər kömək etməyə qərar verdilər. Onlar dükanın köhnə və təmirsiz olduğunu gördülər. Uşaqlar öncə dükanın dekorasiyasını dəyişdirmək üçün plan qurdular. Lakin Fatimə bunun yetərsiz olduğunu düşündü. Bütün işi nəzərdən keçirdi. O, dükanın reklamını və müştərilərin marağını artırmaq lazım olduğunu anladı. Reklamlar hazırladı. Müştərilərin maraq dairəsinə uyğun sorğu keçirdi. Sorğuya əsasən uşaqlar qədim əşyaları vitrinlərə yığdılar. Fatimə isə müşahidə etdiyi məlumatları təhlil edərək, dükanın məhsul çeşidini artırmaq və müştərilərin marağını çəkmək üçün yeni antikvar əşyalar əlavə etdi. O, həmçinin dükanda kiçik tədbirlər təşkil edərək müştərilərin gəlməsini təmin etdi. Bu tədbirlərdə müştərilər antikvar əşyaların tarixi haqqında məlumat əldə edə bilirdilər.





Xüsusi endirim kampaniyaları və tədbirlər hazırladılar. Beləliklə, Fatimənin görülən işə fərqli baxışı sayəsində Rəşid babanın qədim əşyalar dükanının müştəriləri artdı. Rəşid baba uşaqlara təşəkkür etmək üçün hər birinə araxçın hədiyyə etdi.

Bu hekayə Fatimənin tənqidi təfəkkürü sayəsində və sürətli qərarlar verərək necə uğur qazandığını göstərir.

# Əl işi

1. Rəşid baba əvvəlcə ayda 200 manat gəlir əldə edirdi. Fatimə və dostları sosial mediada reklam etdikdən sonra əvvəkli gəlirin $\frac{3}{5}$ hissəsi qədər, qəzetdə reklam etdikdən sonra $\frac{2}{4}$ hissəsi qədər əlavə artım oldu. Reklamdan sonra dükanın ümumi gəlirini hesablayın.

2. Sosial mediada reklam üçün 50 manat, qəzet reklamı üçün 30 manat pul xərcləndi. Rəşid baba dükanının 1 il ərzində hər ay olmaqla , qəzetdə və sosial mediada reklamını edərsə, ilin sonunda xərcləri çıxdıqdan sonra nə qədər qazancı olar?

## Yaradıcı tapşırıq

1. Müştərilərin maraq dairəsini öyrənmək üçün sorğu hazırlayın.
2. Sosial mediada bu dükanın reklamını aparmaq üçün reklam panosu hazırlayın.
3. Qəzet üçün dükanın reklamını hazırlayın.

## Nitq quruculuğu

1. Rollu oyun: Rəşid baba ilə uşaqların dialoqunu qurun. Rəşid babanı reklamdan sonra gəlirin artacağına inandırın.

2. Fatimə işi nə zaman düzgün planlaya bildi? Tənqidi düşüncə və doğru planlama ilə hansı problemləri həll etmək olar?

QEYDLƏR:

QEYDLƏR:

**QEYDLƏR:**

Uşaqlar üçün "Balaca Tacirlərin Macəraları" dərsliyi Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin və Paşa Holding-in dəstəyi ilə KOB-lar üçün İnsan İnkişafı Forumu və Platforması layihələri çərçivəsində Milli Təhsil Texnologiyaları Mərkəzi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Tibb Universiteti və İnkişaf Korporasiyasının birgə işçi qrupu tərəfindən hazırlanmışdır.

KOB-lar üçün

**İnsan İnkişafı Forumu**

Metodik dəstək,
rəy və təkliflər üçün
skan edin.

KOBİA
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

PAŞA Holding

MİLLİ TƏHSİL TEXNOLOGİYALARI MƏRKƏZİ

İNKİŞAF KORPORASİYASI